Non official translation / Qeyri-rəsmi tərcümə

# TOPLAŞMAQ VƏ BİRLƏŞMƏK AZADLIĞI



AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

## TEMATİK BÜLLETEN

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Tematik bülleten

**Non official translation / Qeyri-rəsmi tərcümə**

**Oktyabr 2021**

# TOPLAŞMAQ VƏ BİRLƏŞMƏK AZADLIĞI

Bu xülasələrin hazırlanmasına yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamenti cavabdehdir və onlara görə Nazirlər Komitəsi heç bir şəkildə cavabdehlik daşımır.

***1. TOPLAŞMAQ AZADLIĞI: DİNC NÜMAYİŞLƏRİN / KÜTLƏVİ ETİRAZ AKSİYALARININ KEÇİRİLMƏSİ VƏ ASAYİŞİN TƏMİN EDİLMƏSİ ........ 3***

***2. BİRLİKLƏR YARATMAQ VƏ ONLARDA İŞTİRAK ETMƏK AZADLIĞI ........ 6***

***3. SİYASİ PARTİYALAR YARATMAQ VƏ ONLARIN FƏALİYYƏTİNDƏ İŞTİRAK ETMƏK AZADLIĞI .. 9***

***4. HƏMKARLAR İTTİFAQLARI / KOOPERATİVLƏR YARATMAQ VƏ ONLARA QOŞULMAQ AZADLIĞI . 10***

***İŞLƏRİN SİYAHISI ........ 13***

İnsan hüquqları haqqında Avropa Konvensiyasının 11-ci maddəsində təsbit olunmuş dinc toplaşmaq azadlığı hüququ demokratik cəmiyyətdə fundamental hüquqdur və ifadə azadlığı hüququ kimi onun dayaqlarından biridir. Birləşmək azadlığı da onun kimi mühüm əhəmiyyət kəsb edir və Məhkəmə onun demokratiya və plüralizmlə birbaşa əlaqəsini vurğulayaraq qeyd edib ki, ölkədə demokratiyanın vəziyyəti bu azadlığın milli qanunvericilik əsasında necə təmin olunması və hakimiyyət orqanlarının onu praktikada necə tətbiq etməsi ilə ölçülə bilər.

Bundan əlavə, Məhkəmənin presedent hüququna əsasən, 11-ci maddənin əsas məqsədi şəxsi öz qorunan hüquqlarının həyata keçirilməsinə dövlət orqanlarının özbaşına müdaxiləsindən müdafiə etmək olsa da, əlavə olaraq, bu hüquqlardan effektiv istifadəni təmin etməyə yönələn pozitiv öhdəliklər mövcud ola bilər. Bu kontekstdə dövlətlərin pozitiv öhdəlikləri qeyri-populyar baxışlara sahib olan və ya azlıqlara mənsub olan şəxslər üçün xüsusi əhəmiyyət kəsb edir, çünki onlar pozuntu qurbanına çevrilmək baxımından daha həssas vəziyyətdədirlər.

Hazırkı bülletendə sərbəst toplaşmaq və birləşmək azadlığının tam və effektiv müdafiəsi məqsədilə Avropa Məhkəməsinin qərarlarının icrası kontekstində dövlətlər tərəfindən görülmüş və barəsində məlumat verilmiş tədbirlərin nümunələri verilir. Burada xüsusən aşağıdakı məsələlərə diqqət yetirilir: dinc nümayişlərin və kütləvi etiraz aksiyalarının keçirilməsi və asayişin təmin edilməsi; birliklər və ya siyasi partiyalar yaratmaq və onların fəaliyyətində iştirak etmək azadlığı, həmkarlar ittifaqları və kooperativlər yaratmaq və onlara qoşulmaq azadlığı.

*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur.*
*Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.*

## 1. TOPLAŞMAQ AZADLIĞI: DİNC NÜMAYİŞLƏRİN / KÜTLƏVİ ETİRAZ AKSİYALARININ KEÇİRİLMƏSİ VƏ ASAYİŞİN TƏMİN EDİLMƏSİ

**Nümayişlərdə iştiraka görə sanksiyalar:** Bu işlər ərizəçilərin toplaşmaq və birləşmək azadlığı hüququnun pozulmasına aiddir. Nümayişdə iştirak etdikdən sonra ərizəçilər İnzibati Xətalar Məcəlləsinin ərizəçilərin öz hərəkətlərinin nəticələrini ağlabatan şəkildə qabaqcadan görməsinə imkan verəcək dərəcədə yetirincə dəqiqliklə ifadə olunmayan müddəası əsasında cinayət törətməkdə təqsirli bilindilər. 2005-ci ildə Kassasiya Məhkəməsinin qərarından sonra İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edildi və inzibati həbsi tənzimləyən problemli qanunvericilik müddəası İHAK-a zidd olduğu üçün ləğv edildi.

*ERM / Mkrtchyan (6562/03)*

*Yekun qərar 11/04/2007*

Yekun qətnamə CM/ResDH(2008)2

Yığıncaqların, mitinqlərin, küçə yürüşlərinin və nümayişlərin keçirilməsi qaydalarını tənzimləyən 2011-ci il tarixli "Toplantılar haqqında" Qanun, Venesiya Komissiyasının fikrincə, böyük ölçüdə beynəlxalq və Avropa standartlarına uyğundur.

*ERM / Galstyan (26986/03+)*

*Yekun qərar 15/02/2008*

Yekun qətnamə CM/ResDH(2016)185

İctimai asayişin pozulmasının və cinayətin qarşısının alınması məqsədi ilə **dinc siyasi etiraz aksiyalarının qeyri-mütənasib şəkildə və zərurət olmadan dağıdılması** və aksiyalar barədə qabaqcadan bildiriş verilməməsi (o cümlədən fəalların sonradan axtarılması, saxlanması və təqib olunması) problemini həll etmək üçün "Sərbəst toplaşmaq azadlığı haqqında" 2011-ci il tarixli Qanunda "toplantı" termininin geniş anlayışı verilir və bu anlayış yığıncaqların, yürüşlərin və nümayişlərin bütün növlərini əhatə edir və bildiriş prosesini, xüsusən bildirişin qeydiyyatını, müvafiq dinləmələri, qərar qəbuletmə prosesini və təşkilatçıların orada iştirakını tənzimləyir. Qabaqcadan verilən bildiriş zəruri hallarda toplantı gününə ən geci yeddi gün qalmış təqdim edilməlidir. Qanun həmçinin açıq havada toplaşmaq üçün qabaqcadan verilən bildirişin, prinsipcə, ağlabatan müddətdə təqdim edilməsini nəzərdə tutur. Kortəbii toplantılar, 100 nəfərədək iştirakçının iştirak etdiyi toplantılar və təcili hesab edilən toplantılar üçün bildiriş tələb olunmur.

Qabaqcadan bildiriş verilməsə belə, dinc toplantıların keçirilməsinə polis şərait yaratmalıdır və onların dayandırılması və ya dağıdılması ən son tədbir olmalı və yalnız zorakı toplantılara tətbiq edilməlidir.

"Polis haqqında" və "Polis qoşunları haqqında" Qanunlara 2010-cu ildə edilmiş dəyişikliklərlə insan hüquqlarının müdafiəsi mexanizmləri, xüsusən də polis əməkdaşlarının fərdi identikləşdirilməsi, fiziki gücdən istifadə üçün ciddi şərtlərin olması və belə gücdən yalnız son vasitə kimi istifadə edilməsi, danışıqların aparılması taktikası üzrə təlimlər, planlaşdırma və asayişin qorunması prosesi təkmilləşdirilib.

2015-ci ildə Ermənistan Mülki Məcəlləsinə sərbəst toplaşmaq hüququnun pozulmasına görə mənəvi zərərin ödənilməsini nəzərdə tutan dəyişiklik edilib.

*ERM / Mushegh Saghatelyan (23086/08)*

*Yekun qərar 20/12/2018*

Fəaliyyət planı

İcra vəziyyəti: icra başa çatmayıb

**Toplantılar barədə bildiriş qaydaları:** "Sərbəst toplaşmaq azadlığı haqqında" qanuna əsasən, tənzimləyici orqanın toplantının təşkili barədə bildirişlə bağlı qərar vermək üçün maksimum 48 saat vaxtı var. Gecikmə baş verdiyi təqdirdə bildiriş təmin edilmiş sayılır. 2013-cü il tarixli İnzibati Prosessual Məcəllə tənzimləyici orqanın qərarlarından şikayət vermək imkanlarını tənzimləyir. 2015-ci ilin dekabrında dəyişikliklər edilmiş Konstitusiyada toplaşmaq azadlığının

*ERM / Ermənistan Helsinki Komitəsi (59109/08)*

*Yekun qərar 30/06/2015*

| | |
|---|---|
| müdafiəsi üçün əlavə təminatlar nəzərdə tutulur və kortəbii (spontan) toplaşmaq hüququ təsbit edilir. | **Yekun qətnamə CM/ResDH(2017)297** |
| 2010-2014-cü illərdə müxalifət tərəfindən təşkil edilmiş ictimai asayiş üçün heç bir təhlükə törətməyən **icazəsiz dinc nümayişlərin dağıdılması**, habelə ictimai asayişi pozmağa görə ərizəçilərin qısamüddətli (3-15 gün) inzibati həbslərə məruz qalması və/və ya cinayət məsuliyyətinə cəlb edilməsi (1,5-3 il) kimi sərbəst toplaşmaq azadlığının çoxsaylı pozuntuları problemini həll etmək üçün "Sərbəst toplaşmaq azadlığı haqqında" 1998-ci il tarixli Qanuna Venesiya Komissiyasının müvafiq tövsiyələri nəzərə alınmaqla 2008, 2012 və 2018-ci illərdə dəyişikliklər edilmişdir. Avropa Şurasının Azərbaycan üzrə 2018-2021-ci illər üçün Fəaliyyət Planında sərbəst toplaşmaq azadlığının müdafiəsi həmin planın əsas məqsədlərindən biri kimi müəyyən edilib. | ***AZR / Qafqaz Məmmədov (60259/11)***<br>***Yekun qərar 14/03/2016***<br>**Fəaliyyət planı**<br>İcra vəziyyəti: icra başa çatmayıb |
| İştirakçılar tərəfindən hər hansı qanunsuz hərəkətə yol verilməsə də qabaqcadan bildiriş verilmədiyinə görə **dinc toplantının dağıdılması** üçün tətbiq edilən qeyri-mütənasib müdaxilə problemini həll etmək üçün Konstitusiya Məhkəməsi 2008-ci ildə "Sərbəst toplaşmaq azadlığı haqqında" 1998-ci il tarixli Qanunun qabaqcadan bildiriş verilmədən təşkil edilən nümayişləri qadağan edən müddəasını ləğv etdi. Dəyişiklik edilmiş qanunvericiliyə əsasən, nümayiş haqqında hakimiyyət orqanlarına üç gün öncə məlumat vermək öhdəliyi hələ də qüvvədə olsa da, planlaşdırılan tədbirin tarixindən üç gün əvvəl elan edilə bilməyən dinc toplantılar (yəni siyasi hadisələrə dərhal cavab olaraq təşkil edilən toplantılar) yalnız gec bildiriş vermə səbəbindən qadağan edilə bilməz. | ***MAC / Bukta və başqaları (25691/04)***<br>***Yekun qərar 17/10/2007***<br>**Yekun qətnamə CM/ResDH(2010)54** |
| "Toplantıların təşkili və keçirilməsi haqqında" 2008-ci il tarixli Qanun **ictimai tədbir keçirmək üçün qabaqcadan icazə almaq kimi mövcud tələbi** ləğv etdi. 50-dən çox iştirakçının iştirak edəcəyi kütləvi tədbirlərin təşkilatçıları tədbir keçirmək niyyətləri barədə beş gün qabaqcadan yerli dövlət orqanlarına məlumat verməli və onun vaxtını və yerini bildirməlidirlər. Kortəbii ictimai toplantılar haqqında bildiriş üçün tətbiq olunan prosedurlar sadələşdirilib. Yerli administrasiya dinc toplantının keçirilməsi üçün yerin və vaxtın dəyişdirilməsini yalnız tövsiyə edə bilər. Yekun qərar yerli administrasiyanın əsaslandırılmış sorğusu alındıqdan sonra üç gün ərzində məhkəmələr tərəfindən qəbul edilir. Qadağanın səbəbləri aşağıdakılardır: təcavüz, müharibə, milli, irqi, etnik və ya dini nifrətin qızışdırılması, ictimai ayrı-seçkilik və ya zorakılıq, yaxud milli təhlükəsizlik və ya dövlətin ərazi bütövlüyü, cinayətlərin törədilməsi, ictimai asayişin pozulması və ya kütləvi iğtişaşların təşkili, ictimai əxlaqı pozma, digər şəxslərin hüquq və azadlıqlarına və ya onların həyat və sağlamlığına təhlükə törətmə. Bu məhkəmə qərarından üç gün ərzində şikayət verilə bilər. Yerli administrasiya tərəfindən məhkəmədə iş qaldırılması kütləvi tədbir keçirmək hüququnu dayandırmır. 2011-ci ildə Ali Məhkəmə "Toplantılar haqqında" Qanunun və digər əlaqəli qanunvericiliyin yerli məhkəmələr tərəfindən şərhi və tətbiqi ilə bağlı izahlı qərar qəbul etmişdir. | ***MOL / Xristian Demokrat Xalq Partiyası (28793/02+)***<br>***Yekun qərar 14/05/2006***<br>**Yekun qətnamə CM/ResDH(2017)410** |
| **LGBTİ şəxslərin sərbəst toplaşmaq azadlığına** gəlincə, onların ictimai toplantılar keçirməsi və ayrı-seçkilikdən müdafiəsi ilə bağlı qanunvericilik bazasında islahatlar aparılıb və müvafiq inzibati təcrübəyə lazımi qaydada dəyişikliklər edilib. Görülmüş tədbirlərin səmərəliliyinə bu fakt dəlalət edir ki, ərizəçi QHT 2016-2019-cu illər arasında əsassız məhdudiyyətlər olmadan adekvat polis mühafizəsi ilə nümayişlər (qürur yürüşləri) təşkil edə bilib. 2016-cı ildə Ayrı-Seçkilik Əleyhinə Şura yaradılıb. | ***MOL / Genderdoc-M (9106/06)***<br>***Yekun qərar 12/09/2012***<br>**Yekun qətnamə CM/ResDH(2019)239** |
| **Toplantılar haqqında qabaqcadan bildiriş verilməsi:** "Toplantılar haqqında" 2015-ci il tarixli Qanunda nəzərdə tutulur ki, planlaşdırılan toplantı haqqında bildiriş bələdiyyə orqanlarına toplantıdan 30 gündən tez və altı gündən gec olmayaraq göndərilməlidir; bələdiyyə orqanları toplantının keçirilməsini qadağan edən qərarı tədbirin planlaşdırılan tarixindən ən geci 96 saat öncə | ***POL / Bączkowski və başqaları (1543/06)*** |

qəbul etməyə borcludurlar. Təşkilatçının bu qərardan Regional Məhkəməyə şikayət vermək üçün 24 saatı var, o isə 24 saat ərzində qərar çıxarmalıdır. Onun qərarından 24 saat ərzində Apellyasiya Məhkəməsinə şikayət verilə bilər. Kassasiya şikayəti nəzərdə tutulmayıb və Apellyasiya Məhkəməsinin yekun qərarı dərhal icra edilməlidir.

***Yekun qərar 24/09/2007***

**Yekun qətnamə CM/ResDH(2015)234**

---

*RUS / "Lashmankin və başqaları" işlər qrupu (57818/09)*

***Yekun qərar 29/05/2017***

**Fəaliyyət hesabatı**

İcra vəziyyəti: icra başa çatmayıb

Bu işlər qrupu əsasən **ictimai toplantılarda və etiraz aksiyalarında iştirakın qadağan edilməsinə**, o cümlədən nəticə etibarı ilə iştirakçıların həbsinə, ədalətsiz məhkəmə araşdırmalarına və ittiham hökmlərinə aiddir. Bundan əlavə, *Navalnıya* (*Navalnyy*) aid iki işdə Avropa Məhkəməsi müəyyən etdi ki, ərizəçiyə qarşı görülən bəzi tədbirlərin, o cümlədən qanunsuz həbslərin gizli motivləri olub, yəni onlar "qanunun aliliyi ilə idarə olunan "effektiv siyasi demokratiyanın" tərkib hissəsini təşkil edən siyasi plüralizmi sıxışdırmaq" məqsədi daşıyıb. "İctimai tədbirlər haqqında" 2016-cı il tarixli Qanuna edilən dəyişikliklər bildirişin müddətinə aydınlıq gətirib. Həmçinin Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin 2018 və 2019-cu il tarixli qərarlarında icra hakimiyyətinin hərəkətlərinə aydınlıq gətirilib. 2015-ci il tarixli İnzibati Prosessual Məcəlləyə daxil edilmiş daxili hüquqi müdafiə vasitəsi bəzi işlərdə Avropa Məhkəməsi tərəfindən səmərəsiz hesab edildiyindən, hazırda yeni İnzibati Xətalar Məcəlləsi ilə bağlı təklif layihəsi müzakirə olunur.

---

*TÜR / Ataman işlər qrupu (74552/01+)*

***Yekun qərar 05/03/2007***

**Fəaliyyət hesabatı**

İcra vəziyyəti: icra başa çatmayıb

Dinc toplaşmaq hüququna müdaxilələrin, o cümlədən **iştirakçıların məsuliyyətə cəlb edilməsi və/və ya dinc nümayişlərin dağıdılması üçün həddindən artıq güc tətbiq edilməsinin** qarşısını almaq üçün "Yığıncaqlar və nümayişlər haqqında" 1983-cü il tarixli 2911 saylı Qanuna yenidən baxılaraq dəyişiklik edilməsi 2014-cü ildə Türkiyə Nazirlər Kabineti tərəfindən qəbul edilmiş fəaliyyət planının məqsədlərindən biri idi. Dəyişiklik tədbirdən ən az 48 saat əvvəl yerli hakimiyyət orqanlarına məlumat verilməsini tələb edir. Hakimiyyət orqanları tərəfindən bu müddəaları pozmuş hesab edilən və buna görə də qanunsuz sayılan toplantılar dağıdılır. Statistika 2017 və 2018-ci illərdə polis müdaxiləsinə məruz qalan nümayişlərin faiz göstəricisində azalma olduğunu göstərir. Konstitusiya Məhkəməsi tərəfindən 2911 saylı Qanunun Avropa Məhkəməsinin presedent hüququna uyğun şəkildə şərhi və tətbiqi ilə bağlı istifadə edilməkdə olan yanaşma maraqla qeyd edilmişdir. Qəbul ediləcək əlavə ümumi tədbirlər Nazirlər Komitəsi tərəfindən nəzərdən keçirilir.

---

*TÜR / Djavit An (20652/92)*

***Yekun qərar 09/07/2003***

**Yekun qətnamə CM/ResDH(2008)59**

**"Müstəqil və federativ Kipr uğrunda hərəkat"ın "kiprli türk koordinatorunun" "yaşıl xətti" keçməsinə və iki icma arasındakı toplantılarda iştirak etməsinə hakimiyyət orqanları tərəfindən icazə verilməməsi** probleminin aradan qaldırılması üçün Kipr türklərinə icazələrin verilməsi tənzimlənib və onların şimaldan cənuba keçməsi şəxsiyyət vəsiqəsinin və ya pasportun təqdim edilməsi ilə və şəxslərin və nəqliyyat vasitələrinin keçidinin kompüterləşdirilmiş uçotu ilə mümkündür. 2004-cü ildən etibarən 11 yaşdan kiçik uşaqlar hər iki istiqamətə keçmək üçün şəxsiyyət vəsiqələrini təqdim etməyə məcbur deyillər. Üstəlik, səfərlərin yalnız bir gün davam etməsini və gecə yarısına qədər geri qayıtmanı tələb edən müddəalar ləğv edilib. "Ali İnzibati Məhkəmənin" presedent hüququnda 2003-cü ildə dəyişiklik edilib və hakimiyyət orqanlarının gediş-gəlişlərə icazə verməkdən imtina etmələrinə qarşı şikayətlər prinsipcə qəbul edilir.

## 2. BİRLİKLƏR YARATMAQ VƏ ONLARDA İŞTİRAK ETMƏK AZADLIĞI

Bolqarıstanda **makedoniyalı azlığın tanınmasını təmin etmək məqsədi daşıyan təşkilatın ictimai anım toplantılarına məhdudiyyətlər qoyulması** səbəbindən qeyri-mütənasib müdaxilənin baş verdiyi barədə Avropa Məhkəməsinin qərarına cavab olaraq, hakimiyyət orqanları merlərin belə toplantılara icazə verməsinə aid praktikada dəyişiklik edildiyi barədə və daxili məhkəmələrin presedent hüququna dəyişikliklərin edilməsinə yönəlmiş tədbirlər haqqında məlumat təqdim etdilər.

***BOL / Stankov və Birləşmiş Makedoniya Təşkilatı "Ilinden" (29221/95)***

***Yekun qərar 02/01/2002***

**Yekun qətnamə ResDH(2004)78**

---

"Bolqarıstanda makedoniyalı azlığın tanınmasına" nail olmaq məqsədi ilə **ərizəçi təşkilatların** 1998-2003-cü illər arasında keçirilən **toplantılarının qadağan edilməsi** səbəbindən qeyri-mütənasib müdaxilənin baş verdiyi barədə Avropa Məhkəməsinin gəldiyi qənaətə cavab olaraq, Məhkəmənin müvafiq qərarlarının yayılmasının əhatə dairəsi genişləndirildi: onlar yalnız aidiyyəti şəhərlərin merlərinə deyil, həm də rayon məhkəmələrinə, səlahiyyətli prokurorlara və Milli Təhlükəsizlik Xidmətinin, Sofiya Polis İdarəsinin və Blaqoyevqrad Daxili İşlər İdarəsinin rəhbərlərinə göndərildi. Hakimlər və prokurorlar üçün İHAK-da təsbit olunmuş birləşmək azadlığına dair bir sıra təlimlər təşkil edildi. Hakimiyyət orqanları qadağa qoyulmadan keçirilmiş görüşlər barədə məlumat təqdim etdilər.

***BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden" (44079/98)***

***Yekun qərar 15/02/2006***

***BOL / Ivanov və Ivanov və başqaları (46336/99)***

***Yekun qərar 24/02/2006***

**Yekun qətnamə CM/ResDH(2011)46**

Səmərəli hüquqi müdafiə vasitəsini təmin etmək üçün 2010-cu ildə "Yığıncaqlar və yürüşlər haqqında" Qanuna dəyişiklik edildi, həmin dəyişikliyə əsasən, açıq havada keçirilən mitinq və nümayişlərin təşkilatçıları 48 saat əvvəl müvafiq rayonun merinə bu barədə bildiriş verməlidirlər. Mer bildirişi aldıqdan sonra 24 saatdan gec olmayaraq qanunda nəzərdə tutulmuş səbəblərə görə toplantını qadağan edə bilər. Merin qərarından inzibati məhkəmələrə şikayət verilə bilər, onlar 24 saat ərzində yekun qərar qəbul etməlidirlər. Beləliklə, "Yığıncaqlar və yürüşlər haqqında" Qanuna 2010-cu ildə edilmiş dəyişikliklərlə artıq fəaliyyətini dayandırmış nəzarət orqanına müraciət tələbi aradan qaldırıldı.

***BOL / Zeleni Balkani (63778/00)***

***Yekun qərar 12/07/2007***

**Yekun qətnamə CM/ResDH(2011)7**

---

**Ərizəçi təşkilatların toplantılarının əsassız qadağan edilməsinə** gəlincə, Nazirlər Komitəsi *Birləşmiş Makedoniya Təşkilatı "Ilinden"in,* habelə *Ivanov və Ivanov və başqalarının* işləri üzrə (yuxarıdakı qeydə bax) CM/ResDH(2011)46 saylı qətnaməsində yer alan ümumi tədbirlərlə əlaqədar olaraq gələcəkdə analoji pozuntuların qarşısının alınması üçün bağlı kifayət qədər qanunvericilik tədbirlərinin, maarifləndirmə və digər tədbirlərin həyata keçirildiyini nəzərə almışdır. Bu işlər üzrə qərarlarda 2004-2009-cu illər arasında baş vermiş hadisələrlə bağlı yuxarıdakı qənaətləri şübhə altına almağa əsas verən məlumat yoxdur. Hakimiyyət orqanları məhdudiyyət qoyulmadan keçirilmiş toplantılar barədə əlavə məlumat təqdim etmişlər.

***BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden" və Ivanov (№ 2) (37586/04)***

***Yekun qərar 18/01/2012***

**Yekun qətnamə CM/ResDH(2015)119**

---

Birliklərin qeydiyyatını asanlaşdırmaq üçün 2018-ci ildə qanunvericiliyə edilən dəyişikliklə **birliklərin qeydiyyata alınması** səlahiyyəti məhkəmələrdən Ədliyyə Nazirliyi yanında Qeydiyyat Agentliyinə verildi. Birliyin qeydiyyata alınmasından imtinaya qarşı yeddi gün ərzində regional məhkəməyə şikayət verilə bilər. Bu yeni mexanizm çərçivəsində birliklərin qeydiyyatı tələblərinin qanuniliyinin yoxlanılmasının əhatə dairəsi, xüsusən də birliyin məqsədlərinin qiymətləndirilməsi ilə bağlı həll

***BOL / Zhechev (57045/00)***

***Yekun qərar 21/09/07***

| | |
|---|---|
| edilməmiş məsələlər *"Birləşmiş Makedoniya Təşkilatı "Ilinden" və başqaları"* işlər qrupunda nəzərdən keçirilir. | **Yekun qətnamə CM/ResDH(2017)360**<br>***BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden" və başqaları (59491/00)***<br>**Aralıq qətnamə CM/ResDH(2020)197** |
| **Ölkədaxili məhkəmələrin** milli təhlükəsizlik mülahizələrini və siyasi məqsədlər daşıyan birliklərin qeydiyyata alınmasına konstitusiya ilə qoyulan qadağanı əsas gətirərək müsəlman azlığın hüquqlarını təbliğ edən "Milli Türk Birliyi" adlı **ərizəçi birliyi qeydiyyata almaqdan əsassız imtina etməsi** kontekstində hökumət birliyin qeydiyyat üçün müraciətinə baxılmasının qanunla müəyyən edilmiş çərçivələrinə aydınlıq gətirməyə yönələn seminarlar təşkil etdi. 2018-ci ildə yaradılan və Ədliyyə Nazirliyinin tabeliyində olan Qeydiyyat Agentliyinə birliyin qeydiyyatı ilə bağlı müraciətlərin İHAK-a uyğun şəkildə yoxlanılmasına və birliklərin yeni inzibati qeydiyyat mexanizminin fəaliyyətinə aid məsələlərlə bağlı gələcək tədbirlər "*Birləşmiş Makedoniya Təşkilatı "Ilinden" və başqaları*" işlər qrupunun icraatı çərçivəsində nəzarətdə saxlanılır. | ***BOL / Milli Türk Birliyi və Kungyun (4776/08)***<br>***Yekun qərar 08/09/2017***<br>**Yekun qətnamə CM/ResDH(2019)308** |
| **Torpaq mülkiyyətçilərinin üzərinə** qeydiyyatdan keçmiş bələdiyyə ovçuluq assosiasiyalarına (ASCA) **daxil olmaq**, habelə öz torpaqlarında ov etməyə icazə vermək kimi **hüquqi öhdəlik** qoyulmasına gəlincə, 2000-ci ildə "Ovçuluq haqqında" Qanuna dəyişiklik edilərək torpaqlarında əqidələri əsasında ov edilməsinin əleyhinə olanlara ova etiraz etmək hüququ verilmişdir. | ***FRA / Chassagnou və başqaları (25088/94+)***<br>***Yekun qərar 29/04/1999***<br>**Yekun qətnamə CM/ResDH(2005)26** |
| Bu işdə nəzərdən keçirilən regionlardan birində **dövlət vəzifəsinə namizədlərin** mason olmadıqlarını bəyan etmək **öhdəliyi** haqqında 1996-cı ildə qəbul edilmiş qanun 2005-ci ildə regional qanunla ləğv edildi. 2005-ci il qanunu Konstitusiyanın 18-ci maddəsinə əsasən qadağan edilmiş həmin gizli cəmiyyətlərə mənsub şəxslərin, əgər bu mənsubluq qanuni qüvvəyə malik olan qərarla müəyyən edilibsə, həmin regionda dövlət vəzifəsindən kənarlaşdırılmasını nəzərdə tutur. 2008-ci ildə başqa bir regional qanunla bu işdə nəzərdən keçirilən digər regionda qüvvədə olan 1978-ci il tarixli qanunun müvafiq müddəası ləğv edildi, həmin müddəada nəzərdə tutulurdu ki, regional hökumətdə müəyyən vəzifələri tutmaq üçün müraciət edənlərdən yalnız mason birliklərinin üzvləri birlik üzvü olduqlarını bəyan etməlidirlər. | ***İTA / Oriente d'Italia di Palazzo Giustiniani və Grande Oriente d'Italia di Palazzo Giustiniani (№ 2) (35972/97)***<br>***Yekun qərar 12/12/2001***<br>**Yekun qətnamə CM/ResDH(2010)173** |
| **Bütün torpaq mülkiyyətçilərinin** qeydiyyatdan keçmiş ovçuluq birliklərinə **məcburi qaydada daxil olmaq** və bunun nəticəsində öz torpaqlarında ova icazə vermək öhdəliyi 2011-ci ildə ləğv edildi ki, bununla da ova qarşı olanların həm bu birliklərə qoşulmaqdan, həm də torpaqlarında ov etməyə icazə verməkdən imtina etməsinə imkan yaradıldı. | ***LÜK / Schneider (2113/04)***<br>***Yekun qərar 10/10/2007***<br>**Yekun qətnamə CM/ResDH(2013)34** |
| Bu iş **birliyin** təsis olunmasından qısa müddət sonra Nizamnamə və Proqramının qüvvədən düşmüş elan edilməsi haqqında Konstitusiya Məhkəməsinin qərarı əsasında əsassız olaraq **ləğv edilməsi** ilə əlaqədar idi. Analoji pozuntuların qarşısını almaq üçün 2010-cu ildə qəbul edilmiş "Birliklər və fondlar haqqında" Qanunda qeydiyyat və bununla bağlı prosedurlar asanlaşdırıldı və sadələşdirildi. Qeydiyyat orqanı indi yalnız prosessual tələbləri yoxlamaq səlahiyyətinə malikdir. Birliyin ləğvi üçün | ***MAK / "Radko" vətəndaşlar assosiasiyası və Paunkovski (74651/01)***<br>***Yekun qərar 15/04/2009*** |

əsaslandırılmış məhkəmə qərarı tələb olunur. 2010-2017-ci illər arasında milli azlıqları təmsil edən 200 birlik qeydiyyatdan keçib.

**Yekun qətnamə CM/ResDH(2017)293**

---

2004-2012-ci illər arasında **ölkədaxili məhkəmələrin ərizəçi birlikləri dini qurumlar kimi qeydiyyata almaqdan imtina etməsinə** gəldikdə, 2017-ci ildə presedent hüququnun inkişafı ərizəçilərlə eyni və ya oxşar doktrinal qaynaqları paylaşan bəzi dini birliklərin qeydiyyata alınmasına imkan yaratdı. Həmçinin Məhkəmə Qərarlarının İcrası Departamenti ilə əməkdaşlıq çərçivəsində hakimlər və prokurorlar üçün məlumatlılığın artırılması tədbirləri təşkil edilmişdir.

***MAK / Orthodox Ohrid Archdiocese işlər qrupu (3532/07)***

***Yekun qərar 09/04/2018***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

Bu iş birinci instansiya məhkəmələrinin və Kassasiya Məhkəməsinin **ərizəçilərə** həm yaratmaq istədikləri ictimai fondun həqiqi məqsədlərini əks etdirmək, həm də qeydiyyat üçün qanuni tələblərə riayət etmək məqsədilə həmin **fondun "nizamnaməsində" dəyişiklik etmək üçün vaxt verməkdən imtina etməsi** ilə əlaqədardır. Analoji pozuntuların qarşısını almaq üçün 2002-ci ildə qüvvəyə minmiş Mülki Məcəllədə aydınlıq gətirildi ki, məhkəmələr qeydiyyatla bağlı yekun qərar qəbul olunana qədər ictimai fondlara öz nizamnamələrini tamamlamaq və ya dəyişdirmək üçün vaxt verməlidirlər. Kassasiya Məhkəməsinin müvafiq presedent hüququndan nümunələr təqdim edilmişdir. Ümumiyyətlə, Fondlar üzrə Baş İdarə (FBİ) ictimai fondları idarə etmək və yoxlamaq səlahiyyətinə malik olan dövlət qurumu kimi yaradılmışdır. Yeni fondların qeydiyyatı ilə bağlı məhkəmə qərarlarından şikayət FBİ-nin fondun məqsədini qanuni hesab etməməsi barədə bildiriş verildiyi gündən bir ay müddətində təqdim edilə bilər.

***TÜR / Özbek və başqaları (35570/02)***

***Yekun qəarar 06/01/2010***

**Yekun qətnamə CM/ResDH(2020)290**

---

2004-cü ildə vətəndaş cəmiyyətini gücləndirmək və birləşmək azadlığını təmin etmək məqsədi ilə "Birliklər haqqında" Qanun qəbul edildi: birliklər yaratmaq hüququna qoyulan məhdudiyyətlərin əksəriyyəti, o cümlədən onların siyasi fəaliyyətinə və bu işdə olduğu kimi dövləti tənqid etməsinə qoyulan qadağa aradan qaldırıldı. Kassasiya Məhkəməsi öz presedent hüququnda müvafiq dəyişikliklər etdi.

***TÜR / IPSD və başqaları (35832/97)***

***Yekun qərar 25/01/2006***

**Yekun qətnamə CM/ResDH(2018)161**

---

Bu iş "Vətəndaş birlikləri haqqında" Qanunun müddəasının çox geniş şərhinə əsaslanaraq hakimiyyət orqanlarının **ətraf mühitin mühafizəsi üzrə qeyri-hökumət assosiasiyasını qeydiyyata almaqdan imtina etməsi** ilə əlaqədar idi. Analoji pozuntuların qarşısını almaq üçün 2013-cü ildə qəbul edilmiş "Vətəndaş birlikləri haqqında" Qanun qeyri-kommersiya təşkilatlarının yaradılması ilə bağlı həddindən artıq sərt və qadağanedici tələbləri ləğv etdi və vətəndaş birliklərinin yaradılması, qeydiyyatı və fəaliyyəti üçün geniş imkanlar yaratdı. İndi qeydiyyatdan yalnız çox məhdud formal əsaslarla imtina etmək olar. Bundan sonra bu məsələlərdə hakimiyyət orqanları ilə mübahisələrə məhkəmələr tərəfindən baxılır.

***UKR / Koretskyy və başqaları (40269/02)***

***Yekun qərar 03/07/2008***

**Yekun qətnamə CM/ResDH(2017)377**

## 3. SİYASİ PARTİYALAR YARATMAQ VƏ ONLARIN FƏALİYYƏTİNDƏ İŞTİRAK ETMƏK AZADLIĞI

Bu iş milli təhlükəsizlik mülahizələri əsasında "Bolqarıstanda makedoniyalı azlığın tanınması" məqsədi daşıyan **siyasi partiyanın ləğvi** ilə bağlı qeyri-mütənasib müdaxilə ilə əlaqədar idi. 2009-cu ildə "Siyasi partiyalar haqqında" Qanuna edilən dəyişikliklə partiyanın yaradılması üçün tələb olunan üzvlərin sayı 5000-dən 2500-ə endirildi. Beləliklə, hökumət bəyan etdi ki, "dövlətin Konstitusiyasının tələblərinə və "Siyasi partiyalar haqqında" Qanunun formal tələblərinə cavab vermək şərti ilə ərizəçilərin təşkilatının siyasi partiya kimi qeydiyyata alınmasına heç bir maneə görmür". Qərar hakimlər, prokurorlar, Ombudsman Aparatının nümayəndələri, vəkillər və QHT-lər üçün təlim fəaliyyətlərində istifadə olunub.

***BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden–PIRIN" və başqaları (59489/00)***

*Yekun qərar 20/01/2006*

**Yekun qətnamə CM/ResDH(2009)120**

---

Bu iş **ölkədaxili hakimiyyət orqanlarının siyasi partiyanı** ona qarşı yerli əhalidən olan etirazçıların hücumlarından **qoruya bilməməsi və hərəkətsizliyi** ilə əlaqədardır ki, nəticədə partiyanın binasına ziyan vurulub və birləşmək azadlığının həyata keçirilməsi mümkünsüz olub. Sonradan polis cinayətkarlığa qarşı yeni strategiya qəbul etdi və 2002-2006-cı illər arasında həssas hədəflərin, xüsusən də konkret siyasi maraq kəsb edənlərin təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı bir sıra yeni fərmanlar, sərəncamlar və qərarlar qəbul edildi və hər hansı təcavüz riskinin qarşısını almaq üçün onların 24 saat boyu müşahidəsi həyata keçirildi. İğtişaşlar zamanı bu cür hədəflərə təcili və effektiv yardım göstərilməsinin zəruriliyi xüsusi vurğulandı.

***YUN / Ouranio Toxo və başqaları (74989/01)***

*Yekun qərar 20/01/2006*

**Yekun qətnamə CM/ResDH(2011)218**

---

**Siyasi partiyaların qeydiyyatı ilə bağlı qaydalara və səlahiyyətlərə** 2001 və 2013-cü illərdə federal qanunlarla və 2011, 2013 və 2015-ci illərdə Ədliyyə Nazirliyinin əmrləri ilə aydınlıq gətirildi. "Siyasi partiyalar haqqında" 2012-ci il tarixli Qanuna əsasən, qeydiyyatdan imtina etməzdən əvvəl səlahiyyətli orqanlar bunun səbəbləri barədə müvafiq tərəfi məlumatlandırmalı və onları aradan qaldırmaq üçün üç ay vaxt verməlidirlər. Siyasi partiyanın buraxılması imkanlarına gəlincə, bu Qanunda partiya üzvlərinin minimum sayı 500 nəfər (5000 deyil) müəyyən edilib və partiyaların regional bölmələrində üzvlərin sayı ilə bağlı tələblər aradan qaldırılıb.

***RUS / Rusiya Respublikaçılar Partiyası (12976/07)***

*Yekun qərar 15/09/2011*

**Yekun qətnamə CM/ResDH(2017)354**

---

**Siyasi partiyaların hüquqi statusunu** artırmaq üçün 2001-ci ildə Konstitusiyaya və ardınca 2003-cü ildə "Siyasi partiyalar haqqında" Qanuna edilən dəyişikliklər siyasi partiyanın yalnız bəyan etdiyi məqsədlərinə görə və/və ya açıq-aydın demokratiya əleyhinə fəaliyyət göstərməsinin sübutları olmadan sanksiyaya məruz qalmamasını təmin etdi. Mütənasiblik tələbi siyasi partiyanın buraxılmasına nisbətən daha yüngül sanksiyaların tətbiqini nəzərdə tutur.

***TÜR / Birləşmiş Kommunist Partiyası (19392/92)***

*Yekun qərar 30/01/1998*

**Yekun qətnamə CM/ResDH(2007)100**

---

"Bərabərlik haqqında" 2010-cu il tarixli Qanun yalnız işəgötürən üçün bir ildən çox işləmiş işçiləri **siyasi baxışlarına və ya mənsubiyyətinə görə əsassız olaraq işdən azad edilməkdən** qoruyurdu. "Müəssisə və tənzimləyici aktların islahatı haqqında" 2013-cü il tarixli Qanun siyasi fikir və ya mənsubiyyətinə görə işdən çıxarıldığını iddia edən hər bir işçiyə çalışdığı müddətdən asılı olmayaraq əmək mübahisələri üzrə məhkəməyə şikayət etmək hüququ verir.

***BK / Redfearn (47335/06)***

*Yekun qərar 06/02/2013*

**Yekun qətnamə CM/ResDH(2013)223**

---

## 4. HƏMKARLAR İTTİFAQLARI / KOOPERATİVLƏR YARATMAQ VƏ ONLARA QOŞULMAQ AZADLIĞI

Bu iş **işçilərin həmkarlar ittifaqına üzv olmamaq hüququna malik olmaması** ilə bağlı idi, yəni işəgötürənlərlə həmkarlar ittifaqları arasında bağlanan, "qapalı müəssisə razılaşması" adlandırılan sazişlərlə əlaqədar idi. Analoji pozuntuların qarşısını almaq üçün 2006-cı ilin aprelində "Birlik üzvlüyü ilə əlaqədar azad edilməkdən müdafiə haqqında" Qanuna dəyişiklik edildi və həmin dəyişikliyə əsasən şəxsin həmkarlar ittifaqına mənsubluğu və ya həmkarlar ittifaqına üzv olmaması artıq işə qəbul və ya işdən azad etmə zamanı nəzərə alına bilməz.

***DAN / Sørensen və Rasmussen (52562/99)***

***Yekun qərar 11/01/2006***

**Yekun qətnamə CM/ResDH(2007)6**

---

Bu iş **Müdafiə Məcəlləsinin müddəaları əsasında jandarmların və hərbi qulluqçuların həmkarlar ittifaqı yaratmaq və ya onlara üzv olmaq hüququna ümumi qadağa qoyulması** və xidməti personalın maddi və digər maraqlarını müdafiə etmək məqsədi ilə peşə birlikləri yaratmasının qadağan edilməsi ilə bağlı idi. Analoji pozuntuların qarşısını almaq üçün 2015-ci ildə Müdafiə Məcəlləsinə dəyişiklik edildi: indi hərbi qulluqçular sərbəst şəkildə milli peşə birliyi yarada və ona üzv ola və bu qurumda vəzifələri icra edə bilərlər. Bu birliklərin müfəssəl fəaliyyət qaydaları 2016-cı ildə hökumətin qərarları ilə müəyyən edilib. Onların yaradılması "elan etmə" sisteminə əsaslanır və buna görə də məhkəmə qərarı ilə konkret səbəblərə görə imtina halları istisna olmaqla, onların qeydiyyatından imtina edilə bilməz. O vaxtdan bəri on belə milli peşə birliyi qeydiyyatdan keçib.

***FRA / Matelly (10609/10+)***

***Yekun qərar 02/01/2015***

**Yekun qətnamə CM/ResDH(2017)117**

---

Bu iş məcburi üzvlüklə bağlı üzümçülük kooperativləri ittifaqının müstəsna hüquqları səbəbindən **şərab istehsalçılarına öz şərab istehsalı məhsulları üzərində sərbəst sərəncam vermək və onları satmaq üçün lisenziyaların verilməsindən** hakimiyyət orqanlarının **imtina etməsi** ilə əlaqədar idi. Vəziyyəti düzəltmək üçün 2016-cı ildə qəbul edilmiş "Kənd təsərrüfatı kooperativləri haqqında" Qanunla şərab istehsalçılarının şərab istehsalçıları kooperativlərinə məcburi üzvlüyünə son qoyuldu və həmin kooperativlər məcburi üzvlüyə əsaslanmayan kənd təsərrüfatı kooperativlərinə çevrildi. Beləliklə, Samosda şərabçılıq fəaliyyətini nəzərdə tutan 1934-cü il tarixli məcburi qanun avtomatik olaraq ləğv edildi.

***YUN/ Mytilinaios və Kostakis (29389/11)***

***Yekun qərar 02/05/2016***

**Yekun qətnamə CM/ResDH(2017)155**

---

**Taksi sürücülərinin** biznes lisenziyası almaq üçün **müəyyən bir ittifaqa mənsub olmaları tələbi** 1995-ci ildə ləğv edildi.

***İSL / Sigurjonsson (16130/90)***

***Yekun qərar 30/06/1993***

**Yekun qətnamə CM/ResDH(95)36**

2011-ci ildə xüsusi hüquq sistemi təşkilatına (bu işdə İslandiya Sənaye Federasiyasına) üzv olmayan işçilərin "sənaye rüsumunu" (sənaye fəaliyyətinə görə alınan yığım) ödəmək öhdəliyi ləğv edildi.

***İSL / Vörður Ólafsson (20161/06)***

***Yekun qərar 27/07/2010***

**Yekun qətnamə CM/ResDH(2015)200**

---

**Ərizəçi həmkarlar ittifaqının sadəcə olaraq dövlət qulluqçuları tərəfindən təsis edilməsi səbəbindən mübahisəli qərarla ləğv edilməsindən** sonra 2004-cü ildə "Dövlət qulluqçularının həmkarlar ittifaqları haqqında" Qanuna edilən dəyişiklik dövlət qulluqçuları üçün həmkarlar ittifaqı azadlığını təmin etdi ki, onlar "öz iqtisadi, sosial və peşə maraqlarını" müdafiə edə bilsinlər. Dəyişiklik işəgötürənlərin məşğulluq məsələlərində həmkarlar ittifaqı azadlığına xələl gətirən hər hansı ayrı-seçkilik hərəkətlərinə, xüsusən də işçilərin həmkarlar ittifaqına mənsubiyyətinə və ya iş saatlarından sonra (və ya işəgötürənin razılığı ilə iş saatlarında) həmkarlar ittifaqının fəaliyyətində iştirakına görə işdən azad edilməsinə ümumi qadağa qoyur.

***TÜR / Tum Haber Sen və Cinar (28602/95)***

***Yekun qərar 21/05/2006***

**Yekun qətnamə CM/ResDH(2010)117**

---

**Bələdiyyə işçilərinin həmkarlar ittifaqı yaratmasının qadağan edilməsi** və kollektiv müqavilənin ləğvi (geriyə tətbiq edilməklə) ilə əlaqədar olan hazırkı işdə 2010-cu ildə qanunvericiliyə və konstitusiyaya dövlət qulluqçularının həmkarlar ittifaqı yaratmasına və rəhbərliklə kollektiv müqavilə bağlamasına imkan verən və onların hüquqlarını təmin edən bir sıra dəyişikliklər edildi.

***TÜR / Demir və Baykara (34503/97)***

***Yekun qərar 12/11/2008***

**Yekun qətnamə CM/ResDH(2011)308**

Yuxarıda qeyd edildiyi kimi, 2010-cu ildə konstitusiya dəyişikliyi ilə **dövlət qulluqçularının həmkarlar ittifaqına daxil olmasına qoyulan qadağa** ləğv edildi. Paralel olaraq, 2011-ci ildə "Dövlət qulluqçuları haqqında" Qanuna dəyişikliklər edildi. 2010-cu ildə Konstitusiyaya heç bir intizam sanksiyasının məhkəmə qaydasında yoxlanılmaqdan azad edilə bilməyəcəyini birmənalı şəkildə ifadə edən müddəa daxil edildi. Yerli inzibati məhkəmələr və Dövlət Şurası dövlət qulluqçularının həmkarlar ittifaqı fəaliyyətinə görə təyin olunan inzibati sanksiyaları ləğv etməklə öz məhkəmə təcrübələrini AİHM-in tələblərinə uyğunlaşdırmışlar. Həmkarlar ittifaqı hüquqlarına dair Konstitusiya Məhkəməsinin presedent hüququndan nümunələr də təqdim edilmişdir. Qərarlardan Ədliyyə Akademiyasının hakimlər və prokurorlar üçün təlim fəaliyyətində istifadə olunmuşdur.

***TÜR / Karaçay (6615/03)***

***Yekun qərar 27/06/2007***

**Yekun qətnamə CM/ResDH(2020)354**

---

**İntizam sanksiyalarının tətbiqi:** 2007-ci ildə Baş nazirin 1996-cı il tarixli sərəncamı ləğv edildi, çünki o, torpaq qeydiyyatı, energetika, infrastruktur xidmətləri və avtomobil yollarının tikintisi sahələrində fəaliyyət göstərən həmkarlar ittifaqının hüquqlarına müdaxilə təşkil edərək, onun üzvü olan bütün dövlət işçilərinin tətil aksiyasına qoyulan ümumi qadağa əsasında intizam sanksiyalarının tətbiqini nəzərdə tuturdu.

***TÜR / Enerji Yapi-Yol Sen (68959/01)***

***Yekun qərar 06/11/2009***

**Yekun qətnamə CM/ResDH(2017)374**

---

**Assosiasiya nümayəndələrinin assosiasiyanın sosial məqsədlərinə zidd hesab edilən bəyanatları əsasında hakimiyyət orqanları tərəfindən assosiasiyanın ləğv edilməsi** barədə qərar vətəndaş cəmiyyətinin gücləndirilməsi məqsədi ilə "Birliklər haqqında" 2004-cü il tarixli Qanunla ləğv edildi. Qanunda aydınlıq gətirildi ki, assosiasiya üzvlərinin assosiasiyanın sosial məqsədlərinə zidd fəaliyyət göstərdiklərinə görə cinayət məsuliyyətinə cəlb edilməsi onun ləğvinə səbəb olmayacaq.

***TÜR / Tunceli Kultur ve Dayanisma Dernegi (61353/00)***

***Yekun qərar 12/02/2007***

**Yekun qətnamə CM/ResDH(2010)116**

---

Bu iş birliyin baxışları ilə bir araya sığmayan baxışları müdafiə edən siyasi partiyaya üzv olduğuna görə **müstəqil həmkarlar ittifaqı tərəfindən şəxsin üzvlükdən xaric edilməsi ilə bağlı idi**. Analoji pozuntuların qarşısını almaq üçün "Məşğulluq haqqında" 2008-ci il tarixli Qanunla 1992-ci il tarixli "Həmkarlar İttifaqı və əmək münasibətləri haqqında (birləşdirilmiş) qanunvericilik aktı"na dəyişiklik edildi, həmin dəyişikliyə əsasən, həmkarlar ittifaqı üzvlərinin qaydaları və ya məqsədləri həmkarlar ittifaqınınkına zidd olan siyasi partiyaya üzv olduqlarına görə üzvlükdən xaric edilməsinə yalnız o halda icazə verilir ki, xaric etmə haqqında qərar ədalətlə və həmkarlar ittifaqı qaydalarına uyğun şəkildə qəbul edilsin və bunun nəticəsində şəxs öz dolanışıq vasitələrini itirməsin və ya digər müstəsna məhrumiyyətlərə məruz qalmasın.

***BK / Elektrovoz maşinistlərinin və yanğınsöndürən maşınların sürücülərinin birləşmiş cəmiyyəti (ASLEF) (11002/05)***

***Yekun qərar 27/05/2007***

**Yekun qətnamə CM/ResDH(2011)181**

Bu iş **işəgötürənlərin işçiləri mühüm həmkarlar ittifaqı hüquqlarından imtina etməyə sövq etmək üçün maliyyə stimullarından istifadə etməsinə icazə verməklə**, birləşmək azadlığını təmin etməkdən ibarət pozitiv öhdəliklərinə hakimiyyət orqanlarının riayət etməməsi ilə əlaqədar idi. Analoji pozuntuların qarşısını almaq üçün işçilərin müstəqil həmkarlar ittifaqlarına üzv olmamalarına yönələn şirnikləndirici və çəkindirici addımları aradan qaldırmaq üçün "Əmək münasibətləri haqqında" 2004-cü il tarixli Qanun qəbul edildi. Qanunda digər məsələlərlə yanaşı nəzərdə tutulurdu ki, işçilər yeganə və ya əsas məqsədi onları həmkarlar ittifaqı üzvlüyündən və ya fəaliyyətindən imtina etməyə sövq etməkdən ibarət olan təklifləri qəbul etməmək hüququna malikdirlər. İşçiyə belə bir təklif edildiyi halda, o (yaxud keçmiş işçi) əmək mübahisələri üzrə məhkəməyə şikayət verə bilər.

***BK / Wilson, Jurnalistlərin Milli Həmkarlar İttifaqı və başqaları; Palmer, Wyeth və Dəmiryol, Dəniz və Quru Nəqliyyatı İşçilərinin Milli Həmkarlar İttifaqı; və Doolan və başqaları (30668/96)***

***Yekun qərar 02/10/2002***

**Yekun qətnamə CM/ResDH(2011)183**

## İŞLƏRİN SİYAHISI

*ERM / Galstyan* ........................................................... 3
*ERM / Ermənistan Helsinki Komitəsi* ............................ 3
*ERM / Mkrtchyan* ......................................................... 3
*ERM / Mushegh Saghatelyan* ....................................... 3
*AZR / Qafqaz Məmmədov* ............................................ 4
*BOL / Ivanov və Ivanov və başqaları* ............................ 6
*BOL / Milli Türk Birliyi və Kungyun* ............................... 7
*BOL / Stankov və Birləşmiş Makedoniya Təşkilatı "Ilinden"* ................................................................. 6
*BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden"*......... 6
*BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden–PIRIN" və başqaları* ................................................................. 9
*BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden" və Ivanov (№ 2)* ........................................................... 6
*BOL / Birləşmiş Makedoniya Təşkilatı "Ilinden–PIRIN" və başqaları* ................................................................. 7
*BOL / Zeleni Balkani* ..................................................... 6
*BOL / Zhechev* ............................................................. 6
*DAN / Sørensen və Rasmussen* ...................................10
*FRA / Chassagnou və başqaları* ..................................... 7
*FRA / Matelly* ..............................................................10
*YUN / Mytilinaios və Kostakis*.......................................10
*YUN / Ouranio Toxo və başqaları*.................................. 9
*MAC / Bukta və başqaları* .............................................. 4
*İSL / Sigurjonsson* .......................................................10
*İSL / Vörður Ólafsson*...................................................10
*İTA / Oriente d'Italia di Palazzo Giustiniani və Grande Oriente d'Italia di Palazzo Giustiniani (№ 2)*............... 7
*LÜK / Schneider*............................................................7
*MOL / Xristian Demokrat Xalq Partiyası*......................... 4
*MOL / Genderdoc-M* ....................................................4
*MAK / "Radko" vətəndaşlar assosiasiyası və Paunkovski* 7
*MAK / Orthodox Ohrid Archdiocese işlər qrupu*...............8
*POL / Bączkowski və başqaları* ....................................... 4
*RUS / "Lashmankin və başqaları" işlər qrupu* .............5
*RUS / Rusiya Respublikaçılar Partiyası* ...........................9
*TÜR / Ataman işlər qrupu*...............................................5
*TÜR / Demir və Baykara* ..............................................11
*TÜR / Djavit An* ..............................................................5
*TÜR / Enerji Yapi-Yol Sen*.............................................11
*TÜR / IPSD və başqaları* ..................................................8
*TÜR / Karaçay*..............................................................11
*TÜR / Özbek və başqaları*................................................8
*TÜR / Tum Haber Sen və Cinar* .....................................11
*TÜR / Tunceli Kultur ve Dayanisma Dernegi* .................11
*TÜR / Birləşmiş Kommunist Partiyası*..............................9
*BK / Elektrovoz maşinistlərinin və yanğınsöndürən maşınların sürücülərinin birləşmiş cəmiyyəti (ASLEF)*. 11
*BK / Redfearn*.................................................................9
*BK / Wilson, Jurnalistlərin Milli Həmkarlar İttifaqı və başqaları; Palmer, Wyeth və Dəmiryol, Dəniz və Quru Nəqliyyatı İşçilərinin Milli Həmkarlar İttifaqı; və Doolan və başqaları*. 12
*UKR / Koretskyy və başqaları*..........................................8